# TƏHSİLDƏ MODUL METODİKASININ TƏTBİQİ GÜNÜN VACİB TƏLƏBİDİR



**Kəmalə Qayıbova,**
*ADPU-nun nəzdindəki Azərbaycan Dövlət Pedaqoji Kollecin müəllimi*
*e-mail: tehsilproblemleri@mail.ru*

Müasir informasiya cəmiyyəti insanlarda bilik və bacarıqlarını müntəzəm olaraq artırmaq zərurəti yaradır. Elm sürətlə inkişaf etdiyindən onun əsasında yaradılan texnologiyalar da sürətlə dəyişir. Hətta öyrənilmiş peşə üzrə qazanılan kompetensiyalar da zaman keçdikcə bazarın tələblərinə cavab vermədiyindən təkmilləşdirilməlidir. Sübut etməyə ehtiyac yoxdur ki, məhz keyfiyyətli təhsil əsasında müvafiq bilik və bacarıqlar əldə etməklə şəxsiyyət inkişaf edir, onun əmək məhsuldarlığı və gəlirlərinin həcmi artır, eyni zamanda sosial və iqtisadi həyatda fəal iştirakı təmin olunur.

Təhsilə ayrılan xərclərin böyük bir hissəsini dövlət qarşılayır. Dövlət büdcəsinin təqribən dörddə bir hissəsi təhsilə ayrılır. Lakin çevik olmayan təhsilə böyük miqdarda xərc qoymaq iqtisadi cəhətdən özünü doğrultmur. Təhsili, o cümlədən təhsilin peşə təhsili pilləsini ətalətli edən yüz ildən çox bir müddətdə tətbiq olunan, ara-sıra müəyyən kosmetik dəyişikliklərə uğrayan, lakin əsas prinsiplərini bugünədək qoruyub saxlayan ənənəvi tədris metodikasıdır. Təhsil sistemi onu ətalətli edən ənənəvi tədris metodikasından azad edilərsə, təhsilalanların, yaxud işəgötürənlərin maraqları daha yaxşı ödənilər, peşə təhsilinə maraq kəskin şəkildə artar, nəticədə təhsilə qoyulan sərmayədə dövlətin payı azalar, özəl sektorun payı isə analoji olaraq artar.

Təhsil sahəsi ölkə prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Təhsil sahəsinin inkişafı və dövrün tələblərinə cavab verməsi üçün dövlət mümkün olan hər şeyi edir. Təhsilin, xüsusilə peşə təhsili pilləsinin kifayət qədər geniş spektrdə hüquqi bazası vardır. Elə bir ikinci sahə yoxdur ki, onun hüquqi bazasına dövlət səviyyəsində peşə təhsilinə olan qədər böyük diqqət yetirilmiş olsun. Bazar iqtisadiyyatına keçidlə bağlı ilk peşə-ixtisas təhsilinin əsas inkişaf istiqamətlərini müəyyən edən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 1996-cı il, 116 nömrəli “Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında” Qərarı ilə başlayan bu işin davamı olaraq dövlət səviyyəsində onlarla “Dövlət Proqramı”, “Strateji Yol Xəritəsi”, “Tədbirlər Planı”, “İnkişaf Konsepsiyası” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanunu kimi (24 aprel 2018-ci il) fundamental sənədlər qəbul edilib. Bütün bunlara baxmayaraq, peşə təhsilinə olan maraq çox azdır. Orta məktəb məzunlarının 37,6%-i peşə təhsili almadan istehsalatda işləməyə başlayırlar. Təhlil üçün bircə fakta müraciət edək. 2016-2017-ci tədris ilində ilk peşə-ixtisas təhsili müəssisələrinə şagird qəbulu planı ödənişli əsaslarla 7040 nəfər nəzərdə tutulsa da, faktiki olaraq 2451 nəfər şagird qəbul edilmişdir [5]. Dövlət sifarişi əsasında 11780 nəfər şagird qəbulu planı müəyyənləşdirilsə də, 11316 nəfər şagird qəbul edilmişdir [5]. Ümumilikdə 18540 nəfər şagird qəbulu planlaşdırılsa

da, faktiki olaraq 13767 nəfər şagird qəbul edilmişdir (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-cı il üçün illik hesabatı s.39).

Dövlətin bu dərəcədə böyük diqqətinə rəğmən cəmiyyətdə peşə təhsilinə olan maraq niyə artmır? Bunun səbəbini, ilk növbədə, peşə təhsili sisteminin özündə axtarmaq lazımdır. Peşə təhsilinin mövcud problemlərini ümumiləşdirməklə belə bir qənaətə gəlmək olar ki, uzun illərdir fəaliyyət göstərən fənnyönümlü tədris metodikası artıq köhnəlmişdir. Onun əsasında aparılan təlim və tədris prosesi dövrün tələblərinə cavab vermir. Qəbul qaydalarında, idarəetmə strukturlarında, yaxud tədris prosesinin özündə qismən dəyişikliklər aparmaqla, mövcud problemləri aradan qaldırmaq, peşə təhsilinə olan marağı artırmaq, onu dövrün tələbləri səviyyəsinə qaldırmaq praktiki olaraq mümkün deyil. Ənənəvi fənnyönümlü tədris metodikasının tətbiqi peşə təhsilini maraqsız edir. Peşə təhsili bazarın tələblərinə cavab verməli, çevik olmalı, əks-təqdirdə isə onun istehsal etdiyi məhsulun (mütəxəssisin) alıcısı olmayacaq, başqa sözlə desək, peşə təhsili müəssisələrinin məzunlarını işəgötürənlər ixtisaslı kadr kimi işə qəbul etməyəcəklər.

Bazar iqtisadiyyatı şəraitində ixtisaslı işçiyə qoyulan tələbləri əmək bazarı müəyyənləşdirir. İxtisaslı işçinin fəaliyyətdə olan mövcud texnoloji prosesə dair lazımi dərəcədə bilik, bacarıq və vərdişləri (kompetensiyaları) olmalıdır, əkstəqdirdə işəgötürən onunla müqavilə bağlamaqdan (işə qəbul etməkdən) imtina edir. İxtisas sahibinin peşə kompetensiyaları da daim inkişaf etməli, təkmilləşdirilməlidir. Lakin mövcud texnoloji prosesin də elə bir pilləsi vardır ki, o tədris prosesi planlaşdırılarkən nəzərə alınmayıb, yaxud da təhsil müəssisəsinin mövcud proqramlarında texnoloji prosesin həmin halqası yoxdur. İşəgötürənə də, məhz həmin halqanı bacaran ixtisaslı kadr lazımdır ki, işi ləngiməsin. Texnologiyada daima təkmilləşmə prosesi gedir, lakin hər şeyi yenidən dəyişməyə lüzum qalmır. Çünki dəyişiklik heç də bütün texnoloji prosesə yox, onun ayrı-ayrı pillələrinə aid olur. Odur ki, peşə təhsili müəssisəsində tədris prosesi elə təşkil edilməlidir ki, o hər bir dəyişikliyə çevik cavab verə bilsin və bazarın tələblərinə uyğun kadr hazırlamağa qadir olsun.

Qeyd etdiyimiz kimi, sürətlə dəyişən texnologiya kadr hazırlığından çeviklik tələb edir. Hazırkı şəraitdə bir ixtisası bir dəfə öyrənməklə işi bitmiş hesab etmək olmaz. Çünki texnologiyaların sürətlə inkişafı nəticəsində bir sıra ixtisaslar çox qısa zamanda köhnələrək sıradan çıxır, onların əsasında yeni ixtisaslar yaranır. Ona görə də əldə olunmuş bilik və bacarıqların yeniləşdirilməsinə və təkmilləşdirilməsinə daima ciddi ehtiyac duyulur.

Peşə təhsili sistemində resursların məhdudluğu təhsil proqramlarının (kurikulumların) çevikliyini daha zəruri edir. Təhsil proqramları (kurikulumlar) əmək bazarının real tələblərini ödəməyə yönəlməklə yanaşı, iqtisadi cəhətdən də sərfəli olmalıdır. Çevik peşə təhsili təhsilalanlar üçün də sərfəlidir, çünki çeviklik məzunların vaxtilə qazandıqları təhsil nəticələrini təlim zamanı nəzərə almağa imkan verir. Peşə təhsili sistemi çevik olduğu qədər də şəffaf və anlaşılan olmalıdır, yəni həm işəgötürənlər, həm də təhsilalanlar təlim proqramlarının (kurikulumların) nəticələrini qabaqcadan aydın görə bilməlidirlər.

Elə yeni təlim texnologiyaları hazırlanmalıdır ki, onlar işəgötürənlərin və təhsil almaq istəyənlərin maraq dairəsində olan bütün suallara müsbət cavab verə bilsin. Məsələn, təhsilin müddətini təhsilalanların fərdi qabiliyyətlərinə necə uyğunlaşdırmaq olar? Müxtəlif yaş və bilik bazasına mənsub insanlara təhsil (kvalifikasiya) standartında nəzərdə tutulmuş kompetensiyaları vahid metodika ilə necə aşılamaq olar? Biliyin qiymətləndirilməsi təhsil standartı əsasında aparılmalıdır. Belə olan halda qeyri-formal və informal təhsili formal təhsilə çevirmək və rəsmiləşdirmək (sertifikatlaşdırmaq) niyə problemə çevrilir? Minlərlə gənc olmayan insanın təhsil almaq hüququnu fənnyönümlü tədrisin bir neçə qüsurlu cəhətinə görə əlindən almaq nə dərəcədə ədalətlidir?. Yaxud da biliyin beş ballıq sisem üzrə müəllim tərəfindən qiymətləndirilməsi də fənnyönümlü tədris metodikasının ən absurd tərəflərindən biridir.

Peşəsini yaxşı bilməyən sənətkar heç kəsə lazım deyil. Təhsilalanın nəzəri bilikləri yox, onun peşə standartı üzrə kompetensiyaları qiy-

mətləndirilməlidir. Fənnyönümlü tədrisdə kompetensiyalar qiymətləndirilmir. *Kompetensiyaların qiymətləndirilməsi necə həyata keçirilməlidir? Kompetensiyaları qiymətləndirmək niyə bu dərəcədə aktualdır? Kompetensiyalar bizə nə verir? Həmçinin kənd təsərrüfatı ixtisasları üzrə şagird (öyrənən) qəbulu və təlim-tədris prosesini digər ixtisaslarla eyni reqlamentdə aparmaq nə dərəcədə doğrudur?* O qədər də mürəkkəb olmayan bu suallara mövcud fənnyönümlü tədris prosesinə istinad etməklə, müsbət cavab vermək mümkün deyil, amma peşə təhsili zamanla ayaqlaşmaq üçün bu suallara müsbət cavab verməlidir. Bu suallara cavab vermək üçün yeganə istinad yeri təhsildə modul texnologiyaların tətbiqi olmalıdır.

Fənnyönümlü proqramlar əsasında aparılan mövcud tədris prosesinin yaratdığı bir neçə mücərrəd məqam da, modul texnologiyalarının tətbiqini zəruri edir. Peşə təhsili pilləsinin işi öyrənənlərə alacaqları peşənin spesifik cəhətlərini öyrətmək, bu peşə üzrə işləmək üçün onlarda vacib kompetensiyaları aşılamaqdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il, 77 nömrəli "Peşə təhsilinin dövlət standartları"nın təsdiq edilməsi və tarixli "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)"nın təsdiq edilməsi" haqqında qərarlarına əsasən, peşə-ixtisas təhsili pilləsində ümumtəhsil fənləri, informasiya-kommunikasiya texnologiyaları, peşə-ixtisas fənləri (nəzəri), istehsalat təlimi və təcrübəsi, həmçinin dərsdənkənar məşğələlər – fakültativ, fərdi və qrup məşğələləri şəklində həftəlik maksimal dərs və dərsdənkənar məşğələlər 40 saat (35 saat dərs və 5 saat dərsdənkənar məşğələlər) olmaqla tədris ili ərzində keçirilir. Tədris ili iki yarımildən ibarətdir, birinci yarımil 15 sentyabr-29 dekabr, ikinci yarımil isə 7 yanvar-30 iyun, qış tətili 8 gündür. İstehsalat təcrübəsi təhsil müddətindən asılı olaraq tədris planına uyğun müəyyənləşdirilir. Dərslər nəzəri və praktiki formada keçirilir. Bundan əlavə, laborator-təcrübə məşğələləri aparılır. Fikrimizi əsaslandırmaq üçün tədris müddəti 1 il olan qruplara müraciət edək. Tədris müddəti 1 il olan qruplarda peşə-ixtisas fənləri (nəzəri), istehsalat təlimi və təcrübəsi ilə birlikdə 1117 saat (200+397+520) vaxt ayrılır ki, o da 15 sentyabr tarixindən 30 iyun tarixinədək olan dövrü əhatə edir. 1 iyul tarixindən 15 sentyabr tarixinədək olan 75 günlük zaman ərzində peşə profilindən asılı olmayaraq, təhsil alan tələbələr (öyrənənlər) yay tətilində olurlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli, 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" [2] üzrə 30301-30306, 30318 və 30319 ixtisas şifrlərindəki 37 profil, həmçinin "aqroservis mütəxəssisi", "bitkiçilik mütəxəssisi" və bu tipdə digər ixtisaslar üzrə hazırlanan kadrlar, məhz iyun, iyul, avqust və sentyabr aylarında çox zəruri praktiki bacarıqlar əldə edə bilərlər. Bu ixtisas qruplarındakı peşələrin (ixtisasların) əksəriyyəti kənd təsərrüfatıyönümlü olduğu üçün, məhz yay aylarında praktiki təcrübədə olmalıdırlar. Bu ixtisas qruplarında praktiki məşğələlər təcrübə sahələrində aparılmalıdır. Əkin yeri payız və yazda şumlanır. Bitkilərin çoxu payız və yaz aylarında əkilir. Tərəvəz sahələrində əkin isə yaz aylarında başlanır. Kənd təsərrüfatı məhsullarının çox hissəsi yay aylarında tədarük edilir. Qısası, fermer, yaxud kənd təsərrüfatı ilə məşğul olan hər kəs, məhz qış aylarında necə deyərlər, "məzuniyyətə" çıxır, yerdə qalan aylarda isə iş cəbhəsində olurlar. Bağban, arıçı, üzümçü, pambıqçı, meyvə-tərəvəz ustası və bu qəbildən olan digər peşələr üzrə təhsilalanlar üçün ən optimal təcrübə vaxtı yay aylarıdır. Təhsilalanlar isə, məhz bu vaxt yay tətilində olurlar. Deməli, qəbul və tədris müddəti elə planlaşdırılmalıdır ki, yuxarıda qeyd edilmiş ixtisas qrupları üzrə təhsil alanlar yay aylarında tədris və istehsalat təcrübəsində olsunlar.

Tədris modul texnologiyaları əsasında aparılmış olsa, qeyd olunmuş anlaşılmazlığı qısa müddətdə aradan qaldırmaq olar. Yəni tədris müddəti bu ixtisaslar üzrə yarımillik və illik vaxt bölgüsü elə optimallaşdırılmalı və planlaşdırılmalıdır ki, yay ayları yay tətili yox, tədris-təcrübə vaxtı olsun.

Ənənəvi təhsil formasında yay aylarında pedaqoji personal məzuniyyətdə olduğundan bu iş praktiki olaraq mümkün deyil. Yaxud da tələbələr (öyrənənlər) yay aylarında tətilə çıxmalıdırlar. Sinif otağında oturmaqla tarladakı pro-

sesləri mükəmməl öyrənmək olmaz. Fermer sahələrdə – tarlada, bağda, fermada və s. yerlərdə iş başında olmalıdır. Onun əsl istirahəti bu sahələrdəki işini bitirdikdən sonra başlayır. Modul texnologiyalarında qeyd edildiyi kimi, kənd təsərrüfatı peşələri üzrə nəzəri materialların praktiki işlərlə vəhdətdə tədrisi, məhz yay aylarında mümkün olduğu üçün yuxarıda qeyd olunan qəbul və tədris prosesində müvafiq dəyişikliklər edilməli, tədris prosesi yay aylarında həyata keçirilməli, tətil müddəti isə qış aylarında olmalıdır.

**Nəticə.** Beləliklə, modul texnologiyalarının tətbiqini zəruri edən amilləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

• *İlk peşə-ixtisas təhsili üzrə ixtisasların "Təsnifatı"ndakı bütün ixtisas qrupları üzrə tələbə qəbulunu və təlim prosesini eyni reqlament üzrə aparmaq doğru deyildir. Yuxarıda qeyd edilmiş ixtisas qrupları üzrə təlim prosesi təşkil edilərkən hər bir ixtisasın spesifik xüsusiyyətləri ciddi nəzərə alınmalı, tədris prosesi yay aylarında aparılmalı, tələbələrə tətil qış aylarında verilməlidir.*

• *Kənd təsərrüfatı sahələri üzrə bütün peşələrdə praktiki işlər auditoriyada, yaxud laboratoriyada deyil, tarlada, bağda, fermada və s. yerlərdə yerinə yetirilməlidir. Peşə üzrə modullarda nəzərdə tutulmuş kompetensiyaların praktiki işlərdə aşılanması tədris prosesinin ali məqsədi olmalıdır.*

• *Yuxarıda qeyd edilmiş kənd təsərrüfatı profili ixtisas qrupları üzrə qış tətili 2 ay müddətində olub, dekabr ayının 15-dən növbəti ilin fevral ayının 15-dək davam etməlidir.*

• *Fənnyönümlü tədris modul texnologiyaları əsasında hazırlanmış proqramlarla (kurikulumlarla) əvəz edilməlidir. Məhz modul texnologiyaları yuxarıda sadalanan sualların hər birinə müsbət cavab verməyə, problemləri qısa zaman ərzində çevik şəkildə həll etməyə, işəgötürənlərin və təhsil almaq istəyənlərin maraqlarını özündə ehtiva etməyə qadirdir.*

## ƏDƏBİYYAT

1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 24 aprel 2018-ci il.

2. İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı. Bakı, 2011.

3. Peşə təhsilinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 116 nömrəli Qərarı. Bakı, 23 sentyabr 1996-cı il.

4. "Peşə təhsili müəssisələrinə qəbul Qaydası" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 102 nömrəli Qərarı. Bakı, 15 mart 2019-cu il.